**“Birgə kino istehsalı haqqında” Avropa Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqanın təyin edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

«Birgə kino istehsalı haqqında» Avropa Konvensiyasına qoşulmaq barədə» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi «Birgə kino istehsalı haqqında» Avropa Konvensiyasında nəzərdə tutulmuş kinematoqrafiya birgə istehsalı sahəsində Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin «Birgə kino istehsalı haqqında» Avropa Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilməsi barədə Avropa Şurasının Baş Katibliyinə bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti**

**Heydər ƏLİYEV.**

**Bakı şəhəri, 15 iyul 2000-ci il.**

**№ 475**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2979.**